**25.11.2022: xəbər**

**Business trip of Khazar University administration to Georgia**

*On November 19-21, 2022, the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli and the vice-rector for Administration and Student Affairs Isakhan Isakhanli paid a business visit to Georgia.*

**Meeting at East-West University co-founded by Hamlet Isakhanli**

On November 19, a meeting was held in Tbilisi with the participation of founders and executives at East-West University, where Hamlet Isaxanli was one of the founders. At the meeting, discussions were held on the beginning of teaching at the East-West University, emerging problems, recruitment of well-known specialists, curriculum, student involvement and other issues, and it was decided to hold a separate meeting of the university founders.

**Meeting with Hamlet Isakhanli in Akhundov's house museum**

On November 19, a meeting with Hamlet Isakhanli was held in Akhundov's house museum in Tbilisi. Leading representatives of Azerbaijanis living in Georgia, members of youth organizations, school principals, executives, several former members of parliament, and journalists took part in the meeting. At the meeting, the problems of Azerbaijanis living in Georgia, the development of education in Azerbaijani schools, teaching issues, problems related to the teaching of the Azerbaijani language, the availability of education in the Azerbaijani language in Georgia, and the establishment of an Azerbaijani-language higher school were discussed at the meeting. Hamlet Isakhanli gave detailed answers to the questions of the participants of the meeting.

**Presentation ceremony of the book "Mr. Abdullah in memories"**

On November 20, in the village of Kosali, Gardabani region of Georgia, in hearth and home of Hamlet Isakhanli, a presentation ceremony of the book "Mr. Abdulla in memories" published by Khazar University Publishing House was held. In the book full of memories of 22 people, filled with historical pictures, the personality of Mr. Abdulla (Hamlet Isakhanli's father) is revived as a caring family head, an experienced, influential teacher, a kind person, an honest, courageous and honest businessman. His colleagues, students, prominent people of the region, and graduates of Kosali secondary school gathered for the presentation of the book about Abdulla Isayev, who worked as a mathematics teacher in Kosali secondary

school from his youth until the end of his life and gained great respect among the people. Those who spoke at the ceremony told their interesting memories about Mr. Abdulla and remembered him with respect and honor.

**Hamlet Isakhanli's meeting with Azerbaijan's ambassador to Georgia, Faig Guliyev**

On November 21, Hamlet Isakhanli met with Azerbaijan's ambassador to Georgia, Faig Guliyev. At the meeting, the problems of Georgian Azerbaijanis, the teaching of the Azerbaijani language in Azerbaijani schools, the lack of teachers in Azerbaijani-speaking schools, the participation of Azerbaijani universities in the process of staff training in this direction and other issues were discussed.

**Founders Meeting at East-West University**

On November 21, a meeting of founders was held at East-West University. At the meeting, the current issues, the expansion of the material and technical base, tuition fees and general financial issues, the future development strategy of the university were discussed in detail.

**Presentation of diploma of academician to Hamlet Isakhanli at National Academy of Sciences of Georgia**

On November 21, a meeting was held at the National Academy of Sciences of Georgia. Hamlet Isakhanli was presented with an official diploma regarding his election as a full member of GNAS at the meeting of the Presidium chaired by GNAS President Giorgi Kvesitadze.

Few sentences from the speech of Giorgi Kvesitadze, President of GNAS: "They say that nothing good has happened in our lives in recent years. But this is not the case, it's happening. One of those events is happening today. Among us is Hamlet Isakhanli, who is known not only in Azerbaijan and Georgia, but all over the world, a great scientist and a great Azerbaijani, whom I love and have special respect for. I am very proud to see him here as an academician of the Georgian National Academy of Sciences. Hamlet's election as a member of GNAS is an honor for me personally and for our academy."

Accepting the congratulations, Hamlet Isakhanli proposed to hold a meeting of the Presidium of GNAS in Baku and invited the guests to Azerbaijan. This invitation was welcomed by the members of the Presidium of the Academy.

After the meeting of the presidium, a banquet was held in honor of Hamlet Isakhanli in one of the most picturesque places of Tbilisi.

**Xəzər Universiteti rəhbərliyinin Gürcüstana işgüzar səfəri**

*2022-ci il noyabrın 19-21-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı və İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı Gürcüstanda işgüzar səfərdə olublar.*

**Hamlet İsaxanlının təsisçilərindən biri olduğu Şərq-Qərb Universitetində görüş**

Noyabrın 19-da Tbilisidə Hamlet İsaxanlının təsisçilərindən biri olduğu Şərq-Qərb Universitetində təsisçilərin və rəhbər işçilərin iştirakı ilə görüş keçirildi. Görüşdə Şərq-Qərb Universitetində tədrisin başlanması, ortaya çıxan problemlər, tanınmış mütəxəssislərin işə cəlb edilməsi, tədris planı, tələbə cəlbi və s. məsələlər ətrafında müzakirələr aparıldı, universitet təsisçilərinin ayrıca yığıncağının keçirilməsi qərara alındı.

**Axundovun ev muzeyində Hamlet İsaxanlı ilə görüş**

Noyabrın 19-da Tbilisidə Axundovun ev muzeyində Hamlet İsaxanlı ilə görüş keçirildi. Görüşdə Gürcüstanda yaşayan azərbaycanlıların qabaqcıl nümayəndələri, gənclər təşkilatının üzvləri, məktəb direktorları, rəhbər işçilər, parlamentin keçmiş bir neçə üzvləri, jurnalistlər iştirak etdilər. Görüşdə Gürcüstanda yaşayan azərbaycanlıların problemləri, Azərbaycan məktəblərində təhsilin inkişafı, tədris məsələləri, Azərbaycan dilinin tədrisi ilə bağlı problemlər, Gürcüstanda Azərbaycan dilində təhsilalmanın əlçatan olması, bu yolda azərbaycandilli ali məktəbin yaradılması kimi aktual məsələlər müzakirə edildi. Hamlet İsaxanlı görüşdə iştirak edənləri maraqlandıran suallara ətraflı cavab verdi.

**“Abdulla müəllim xatirələrdə” adlı kitabın təqdimat mərasimi**

Noyabrın 20-də Gürcüstanın Qardabani rayonunun Kosalı kəndində, Hamlet İsaxanlının ata ocağında Xəzər Universiteti Nəşriyyatında çap edilmiş “Abdulla müəllim xatirələrdə” adlı kitabın təqdimat mərasimi keçirildi. Ümumilikdə 22 nəfərin xatirəsi toplanmış, tarixi şəkillərlə zəngin kitabda Abdulla müəllimin (Hamlet İsaxanlının atası) qayğıkeş ailə başçısı, təcrübəli, nüfuzlu pedaqoq, xeyirxah insan, sözübütöv, cəsarətli, dürüst el adamı kimi şəxsiyyəti canlandırılır.

Gəncliyindən ömrünün sonuna qədər Gürcüstanın Qarayazı mahalında, Kosalı orta məktəbində riyaziyyat müəllimi işləmiş və el arasında böyük hörmət qazanmış Abdulla İsayev haqqında kitabın təqdimatına onun həmkarları, tələbələri, bölgənin qabaqcıl insanları, Kosalı orta məktəbinin məzunları toplaşmışdılar. Mərasimdə çıxış edənlər Abdulla müəllim haqqında maraqlı xatirələrini danışdılar, onu hörmət və ehtiramla yad etdilər.

**Hamlet İsaxanlının Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyevlə görüşü**

Noyabrın 21-də Hamlet İsaxanlı Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyevlə görüşdü. Görüşdə Gürcüstan azərbaycanlılarının problemləri, Azərbaycan məktəblərində azərbaycan dilinin tədrisi, azərbaycandilli məktəblərdə müəllim çatışmazlığı, bu istiqamətdə kadr hazırlığı prosesində Azərbaycan ali məktəblərinin iştirakı və s. məsələlər ətrafında müzakirələr aparıldı.

**Şərq-Qərb Universitetində təsisçilərin yığıncağı**

Noyabrın 21-də Şərq-Qərb Universitetində təsisçilərin yığıncağı keçirildi. Yığıncaqda qarşıda duran cari məsələlər, maddi-texniki bazanın genişləndirilməsi, təhsil haqqı və ümumi maliyyə məsələləri, universitetin gələcək inkişaf strategiyası ətraflı şəkildə müzakirə edildi.

**Gürcüstan Milli Elmlər Akademiyasında Hamlet İsaxanlıya akademik diplomunun təqdim olunması**

Noyabrın 21-də Gürcüstan Milli Elmlər Akademiyasında görüş baş tutdu. GMEA-nın prezidenti Giorgi Kvesitadze`nin rəhbərliyi ilə keçirilən Rəyasət Heyətinin iclasında Hamlet İsaxanlıya GMEA-nın həqiqi üzvü seçilməsi ilə bağlı rəsmi diplom təqdim edildi.

GMEA-nın prezidenti Giorgi Kvesitadze`nin dediklərindən: "Deyirlər ki, son illərdə həyatımızda yaxşı heç nə baş vermir. Səhvdir, yalandır, baş verir, həm də çox gözəl hadisələr baş verir. Bu gün o hadisələrdən biri baş verir. Yalnız Azərbaycanda, Gürcüstanda deyil, bütün dünyada tanınan, böyük elm adamı və böyük azərbaycanlı, mənim çox sevdiyim və xüsusi hörmət bəslədiyim Hamlet İsaxanlı aramızdadır. Onu Gürcüstan Milli Elmlər Akademiyasının akademiki kimi burda gördüyüm üçün çox qürurluyam. Hamletin GMEA-ya üzv seçilməsi şəxsən mənim üçün və akademiyamız üçün şərəfdir."

Təbrikləri qəbul edən Hamlet İsaxanlı GMEA-nın Rəyasət Heyətinin bir iclasının Bakıda keçirilməsini təklif etdi və qonaqları Azərbaycana dəvət etdi. Bu dəvət akademiyanın Rəyasət Heyətinin üzvləri tərəfindən məmnuniyyətlə qarşılandı.

Rəyasət heyətinin iclasından sonra Tbilisinin ən mənzərəli yerlərindən birində Hamlet İsaxanlının şərəfinə ziyafət verildi.





საქართველოს მეცნიერებათა ეროვნული აკადემია

Georgian National Academy of Sciences

# Diploma

of

## Foreign Membership

The Georgian National Academy of Sciences

Elected

Professor

## Hamlet Isaxanli

(Applied Mechanics)

A

Foreign Member of the Academy

and

in Testimony thereof have affixed their Seal to this

## Certificate

and caused the same to be duly attested,
this 24th of December in the year 2021.

Giorgi Kvesitadze
President

Tbilisi, Georgia